*Oxuyun. Verilmiş sözləri yerinə yazın.*

# TƏKƏR

**Taxtadan düzəldilmiş bir ________________yolun kənarına düşüb qalmışdı. Buradan__________ keçirdi.**
**– Götür məni, – deyə təkər onlardan xahiş etdi.**
**– Taxta təkər nəyimizə lazımdır? – maşınlar ona lağ etdi.**
**Yoldan bir____________ keçirdi.**
**– Götür məni, – deyə təkər yalvardı.**
**– Əgər dörd dənə olsaydın, götürərdim, – deyə araba da keçib-getdi.**
**Yolda bir ____________göründü. O, əlində ____________məktəbdən gəlirdi.**
**"Eh, mən onun nəyinə lazımam axı", – deyə təkər fikrindən keçirdi. Amma buna baxmayaraq, soruşdu:**
**– Məni götürərsən?**
**– Böyük məmnuniyyətlə! – Oğlan təkəri aparıb_____________ damına qoydu.**
**_______________uçub gəldilər, təkərin üstündə özlərinə rahat _____________ qurdular.**
**Təkər, nəhayət, bir işə yaradığına görə çox məmnun oldu.**

*Zahid Xəlil*

**təkər maşınlar araba oğlan çanta evin Leyləklər yuva**

liveworksheets.com